# Neftçala həm də rəssamlar yurdudur

## Rayonda peşəkar rəssamlıq məktəbi ötən əsrin 60-70-ci illərində formalaşmışdır

**Həyat sübut edir ki, nə vaxtsa haradasa bir işin təməli möhkəm qoyulursa, o, heç vaxt itmir. əksinə, münbit şəraitdə daha da inkişaf edir. Neftçalada rəssamlıq sənəti keçən əsrin 60-70-ci illərində təşəkkül tapmağa başlamışdır. İstedadlı fırça ustası Adil Hacıyevin rəsm əsərləri öncə rayon sakinlərinin, sonra isə respublikanın adlı-sanlı rəssamlarının diqqətini cəlb etmişdir. Çox keçməmişdir, onun yaratdığı əsərlər müxtəlif sərgilərdə nümayiş olunmuşdur.**

Həmin illər Neftçala rayonuna rəhbərlik edən İbrahim Qurbanovun təşəbbüsü ilə Neftçala şəhərində əzəmətli bir mədəniyyət sarayı tikilmişdir. O vaxta kimi Xıllı qəsəbəsində fəaliyyət göstərən rəsm qalereyası bu saraya köçürülmüşdür. Neftçala Rəssamlıq Məktəbinin yaradıcısı Adil Hacıyev bu işə hamıdan çox sevinənlərdən biri kimi mədəniyyət sarayında dərnək yaratmışdır. O, məktəbləri bir-bir gəzərək rəssamlığa həvəsi olan uşaqları ətrafına yığıb onlarla məşğələlər keçməyə başlamışdır. "Çəkilən heç bir zəhmət yerdə qalmaz" deyiblər. Məhz Adil Hacıyevin təşəbbüskarlığı, zəhməti sayəsində istedadlı gənclər üzə çıxmışdır. Xalq rəssamı, əsərləri dünya sərgilərində nümayiş etdirilən, sənətsevərlər tərəfindən rəğbətlə qarşılanan Sakit Məmmədov, tanınmış rəssamlar Fikrət İbrahimov, Rəhim Ağayev məhz A.Hacıyevin məktəbini keçərək sənət zirvəsinə ucalmışlar.

Neftçala Dövlət Rəsm Qalereyasının direktoru Nigar Abdullayeva deyir ki, o özü də vaxtilə rayondakı rəsm dərnəyinə getmişdir. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına qəbul olunmuş, ali təhsilini bitirib boya-başa çatdığı Neftçalaya qayıtmışdır. 2007-ci ildən Neftçala Dövlət Rəsm Qalereyasının direktorudur.

Onun sözlərinə görə, A.Hacıyevin başladığı iş bu gün də davam edir. Nigar xanım bunu əyani şəkildə göstərmək üçün bizi qalereyanın geniş zalına dəvət etdi. Yaşlı, orta və gənc nəslə mənsub olan rəssamların əsərləri barədə məlumat verərək bildirdi ki, bu əsərlərin bütövlükdə ölkəmizin iqtisadi, mədəni həyatını, coğrafiyasını əks etdirdiyini görmək çətin deyil. Həqiqətən də, "Ulu Öndər Heydər Əliyevin Sosialist Əməyi Qəhrəmanı Nuruş Əliyevin sədr olduğu kolxozda pambıqçı qızlarla apardığı söhbət", "Kür çayının Xəzərə qovuşduğu mənzərə", "Neftçilər əmək növbəsində", "Balıqçı gəmiləri" və s. əsərləri seyr edəndə insanda xoş təəssürat, habelə nostalji hisslər oyanır. Həmin tablolarla sanki Neftçalanı gəzir, rayondakı quran, yaradan əmək adamları ilə tanış olursan.

Hazırda rayon gənclərindən 2 nəfəri Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, 2 nəfəri Azərbaycan Pedaqoji Universitetinin Təsviri incəsənət fakültəsində, 1 nəfəri Rəssamlıq Kollecində, bütövlükdə 8 nəfər müxtəlif təhsil ocaqlarında rəssamlıq və heykəltaraşlıqla bağlı təhsil alır, sənətin sirlərini öyrənir.





Yeniyetmə və gənclərin rəngkarlıq sənətinə olan həvəsinin artırılmasında sərgilərin rolu böyükdür. Elə ona görə də qalereyanın rəhbərliyi bu məsələni həmişə diqqətdə saxlayır. Bunun sayəsində təkcə 2022-ci ildə rayon rəssamları 22 sərgidə iştirak etmişlər.

Bu gün Neftçala Dövlət Rəsm Qalereyasının əsas fondunda 96 əsər var. Onlardan 64-ü rəngkarlıq, 12-si qrafika, 17-si heykəltaraşlıq və 3-ü tətbiqi sənətə aiddir. Qalereyanın müvəqqəti fondunda isə müxtəlif janrlarda çəkilmiş 200-ə yaxın rəsm əsəri saxlanılır. Onlar fond üçün ayrılmış xüsusi otaqlarda mühafizə olunur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2023.- 15 yanvar.- S.7.